Adımız məfkurəmizdir

13 – 19 iyun 2023-cü il

Türküstan

www.turkustan.az



Qocayeva Rəna Fərhad qızı

Avey Dövlət Tarix-Mədəniyyət Qoruğunun elmi işçisi

# Azərbaycanın qədim yaşayış məskənləri

## Damcılı Mağara düşərgəsi

***İki yunan sözü olan "arxayos"- qədim, "loqos" – elm sözünün birləşməsindən əmələ gələn arxeologiya elmi qədim tarixi öyrənən elm deməkdir. Arxeologiya elminin ən əsas vəzifələrindən biri də məhz ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixinin öyrənilməsidir. Bildiyimiz kimi arxeologiya elmi insanlığın uzaq keçmişini keçmişdən bizə yadigar qalan maddi mədəniyyət qalıqları vasitəsilə öyrənir. Tarixin bütün dövrlərində aparılan arxeoloji tədqiqatlar zamanı ilk sakinlərin məskunlaşmasına aid zəngin maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Tapılmış elmi materiallar əsasında isə biz Azərbaycanın uzaq keçmişinin tarixi, insanlığın ilkin inkişaf mərhələləri və ulu sakinlərin maddi mədəniyyət qalıqlarının xüsusiyyətləri öyrənir, habelə tədqiq və təbliğini həyata keçirə bilirik.***



Azərbaycan alimlərinin Avropa alimləri ilə birlikdə apardığı elmi tədqiqatlar nəticəsində Azərbaycan ərazisində ibtidai insanların 2 milyon il bundan əvvəl yaşamağa başlaması sübut olunmuşdur. Halbuki, 1950-ci illərin əvvəllərinə qədər respublikamızın ərazisində qədim insan düşərgələrinin olmadığı və burada ibtidai insanların yaşamadıqları göstərilirdi. Lakin son illərdə Azərbaycan alimlərinin apardıqları arxeoloji tədqiqatlar isə bu fikrin yanlış və əsassız olduğunu göstərərək, respublikamızın ərazisinin qədim insanın yarandığı və formalaşdığı ərazilərdən biri olduğu elmi materiallarla sübuta yetirilmişdir. Eyni zamanda da Azərbaycan ərazisində sivilizasiyanın özünəməxsus xüsusiyyətlərinin olması müəyyən olunmuşdur.

Qürurverici haldır ki, ölkəmizin ərazisində yazıya qədərki və ondan sonrakı tariximizin bütün mərhələlərini tam şəkildə özündə yaşadan olduqca çoxsaylı maddi mədəniyyət abidələri şəbəkəsi mövcuddur. Bu, o deməkdir ki, əcdadlarımız Qədim Daş dövründən başlayaraq tarixin bütün sonrakı mərhələlərində də bəşəri sivilizasiyanın parlaq nümunələrindən ibarət olduqca zəngin mədəni irs qoyub getmişlər. Belə bir məqamı da xüsusi olaraq qeyd edək ki, Azərbaycan arxeoloqlarının zaman-zaman aşkarlayaraq tədqiq etmiş olduqları qədim insan düşərgələri və onlardan toplanan çox zəngin maddi mədəniyyət qalıqları təkcə Azərbaycan tarixinin deyil, bütövlükdə ümumdünya tarixinin bir sıra mühüm, həm də olduqca aktual problemlərinin də öyrənilməsində əvəzsiz töhfə kimi dəyərləndirilir.

Bu gün demək olar ki, ölkəmizin hər bir güşəsində zəngin mədəni irs nümunələrimizə və qədim yaşayış məskənlərinə rast gəlirik. Onlardan Füzuli rayonunda yerləşən "Kültəpə yaşayış yeri", "Qaraköpəktəpə yaşayış yeri", "Xantəpə", "Günəştəpə" və s. kimi yaşayış məskənləri, həmçinin, Ağstafa rayonunda "Qalabozu","Şomutəpə", habelə, Şamaxı rayounun "Xınıslı", "Qalacıq", Beyləqan rayonunun "Kültəpə", "Qaratəpə", "Örnəqala" və s. kimi qədim yaşayış məskənləri mövcuddur. Bununla yanaşı, doğma diyarımız olan Qazax rayonunda da ilkin insan izlərinə rast gəlinən yaşayış məskənlərinə rast gəlirik. Belə ki, rayonumuzun ərazisində "Babadərviş", "Boztəpə", "Börgin ağzı", "Qanlı töyrə", "Qarğalartəpəsi", "Qiyaməttəpə", "Sarıtəpə", "Sarvantəpə", "Töyrətəpə", "Yastıtəpə" , "Atəşpərəstlər daxması" və s. kimi qədim yaşayış məskənlərimiz vardır.

***İlkin olaraq Azərbaycanın Qarabağ ərazisində aparılan kompleks tədqiqatlar nəticəsində paleolit dövrünə aid zəngin düşərgələr qeydə alınmış və elmi tədqiqat işləri aparılmışdır. Qarabağın dağlıq ərazisində karst mağaraları mövcuddur. Lakin hələlik bu diyarda ən zəngin maddi mədəniyyət nümunələrinə malik arxeoloji tapıntılar Azıx və Tağlar mağaralarında qeydə alınmışdır. Çoxtəbəqəli Azıx paleolit düşərgəsi Qarabağın ən mənzərəli guşəsində Quruçayın sol sahilində, dəniz səviyyəsindən 900 metr yüksəklikdə, Füzuli şəhərinin 16 kilometrliyində olub, Tuğ çökəkliyində yerləşir. Elmi tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Azərbaycanın ən qədim sakinlərinin əmək alətlərini hazırlaması və onların sonrakı inkişafı üçün minilliklər lazım olmuşdur.***



***Əcdadlarımız Qədim Daş dövründən başlayaraq tarixin bütün sonrakı mərhələlərində də bəşəri sivilizasiyanın parlaq nümunələrindən ibarət olduqca zəngin mədəni irs qoyub getmişlər. Belə bir məqamı da xüsusi olaraq qeyd edək ki, Azərbaycan arxeoloqlarının zaman-zaman aşkarlayaraq tədqiq etmiş olduqları qədim insan düşərgələri və onlardan toplanan çox zəngin maddi mədəniyyət qalıqları təkcə Azərbaycan tarixinin deyil, bütövlükdə ümumdünya tarixinin bir sıra mühüm, həm də olduqca aktual problemlərinin də öyrənilməsində əvəzsiz töhfə kimi dəyərləndirilir...***

**(ardı gələn sayımızda)**

**Oxu, oxut, abunə ol!**